**“Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Bakı ərazisi üzrə su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsi üzrə” Kredit Sazişinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır :**

“Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Bakı ərazisi üzrə su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsi üzrə” 2009-cu il noyabrın 20-də Bakı şəhərində imzalanmış Kredit Sazişi təsdiq edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 aprel 2010-cu il.
№ 981-IIIQ

**Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Bakı ərazisi üzrə su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsi üzrə**

**KREDİT SAZİŞİ**

2009-cu il noyabrın 20-də (1430-cu hicri ili Zülhiccə ayının 3-də) aşağıdakı Tərəflər arasında Kredit Sazişi imzalanmışdır:

1. Mərkəzi Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində yerləşən Səudiyyə İnkişaf Fondu (bundan sonra "Fond" adlandırılacaq), rəis müavini, icraçı direktor, mühəndis cənab Yusuf binİbrahim əl-Bəssamın şəxsində - bir tərəfdən;

2. Azərbaycan Respublikası (bundan sonra "Borcalan" adlandırılacaq), "Azərsu" ASC-nin prezidenti cənab Nizaməddin Rzayevin şəxsində - digər tərəfdən.

**PREAMBULA**

a) Borcalan bu Sazişin 2 №-li cədvəlində təsvir edilmiş Bakı ərazisi üzrə Su Təchizatı və Kanalizasiya Sisteminin Yenidən Qurulması və Genişləndirilməsi Layihəsinin (bundan sonra "Layihə" adlandırılacaq) maliyyələşdirilməsinə yardım etmək üçün kredit ayrılması xahişi ilə Fonda müraciət etmişdir.

b) Fondun məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişafını yüksəltmək üçün yardım göstərmək və onların inkişaf layihələri və proqramlarının həyata keçirilməsi üçün lazım olan kreditləri ayırmaqdır.

c) Fond həmin Layihənin dost Azərbaycan xalqının iqtisadi inkişafına fayda gətirəcəyinə və əhəmiyyətli olacağına əmindir.

d) Fondun Direktorlar Şurası bütün bunları nəzərdən keçirərək, 8/95/1117 saylı qərarı ilə Saziş üzrə şərtlərə və qaydalara müvafiq olaraq, Borcalana kredit ayrılması haqqında razılığa gəlmişdir.

Bunlarla əlaqədar Tərəflər aşağıdakı şəkildə razılığa gəlirlər:

**M ad d ə 1**

**Ümumi şərtlər. İzahlar**

1.1. Sazişin Tərəfləri Fondun Direktorlar Şurasının 26 iyul 1976-cı il (29 Rəcəb 1396-cı hicri ili) 11/14 saylı qərarı ilə dərc edilmiş Fondun Kredit Sazişlərinin Ümumi Şərtlərinin bütün müddəalarını bu Sazişdə göstərilmiş kimi anlayaraq onu qəbul edirlər (bundan sonra Fondun Kredit Sazişlərinin Ümumi Şərtləri "Ümumi Şərtlər" adlandırılacaq).

1.2. Bu Sazişdə istifadə edilən terminlər, mətndə başqa məna nəzərdə tutulmayıbsa, Ümumi Şərtlərdə və əvvəldə göstərilmiş Preambulada istifadə edilən terminlərin açıqlanan mənalarına müvafiq məna kəsb edəcək; "Cəmiyyət" dedikdə Borcalan

**Maddə 2**

**Kredit**

2.1. Fond Kredit Sazişinin şərtlərinə və müddəalarına müvafiq olaraq, Borcalana doxsan üç milyon yeddi yüz əlli min (93,750,000) Səudiyyə rialı məbləğində kredit ayırmağa razılaşır.

2.2. Bu Sazişin 1 №-li cədvəlinə müvafiq olaraq, eləcə də Fondla Borcalan arasında razılaşmaya uyğun olaraq vaxtaşırı dəyişdirilən cədvələ əsasən, həmçinin Fondun Layihə üçün tələb olunan mallar və xidmətlər üzrə çəkilən və kredit vəsaitlərindən maliyyələşdirilən məqsədli xərclərin ödənilməsi üçün sərf edilmiş, yaxud (Fond razı olarsa) sərf ediləcək məbləğin qarşılığının ödənilməsi üçün Fondun kreditləri üzrə çıxarmaların edilməsi prosedurlarına müvafiq olaraq Borcalanın kredit məbləğini kredit hesabından çıxarmaq hüququ vardır.

2.3. Borcalan Kredit vəsaitindən yalnız Layihənin icrası üçün zəruri olan mallara və xidmətlərə sərf olunan xərclərin maliyyələşdirilməsi məqsədilə istifadə edə bilər. Belə malların və xidmətlərin əldə edilməsi İnkişaf İnstitutu - Koordinasiya Qrupunun üzvləri tərəfindən verilmiş və Məsləhətçilərin istifadəsinə, tapşırıqların icra edilməsi üzrə müqavilə, eləcə də malların əldə edilməsi qaydalarına müvafiq olaraq həyata keçirilməlidir. Borcalan Kredit vəsaitlərindən maliyyələşdiriləcək işlər üçün hər hansı müqaviləni imzalamamışdan, yaxud gələcəkdə ona hər hansı ciddi dəyişikliklər etməmişdən əvvəl Fondun razılığını almağı öhdəsinə götürür.

2.4. Kredit vəsaitlərindən istifadənin son müddəti 31.12.2012-ci il tarixi, yaxud Fondun müəyyən etdiyi daha sonrakı tarix hesab oluna bilər. Fond təyin etdiyi yeni tarix barədə Borcalana dərhal məlumat verməlidir.

2.5. Borcalan götürülmüş kreditin ödənilməmiş hissəsinin 2 (iki) faizini illik kredit faizi olaraq ödəməlidir.

2.6. Kredit faizi və digər xərclər hər altı aydan bir, yəni ilin, müvafiq olaraq, 15 iyun və 15 dekabrında ödənilməlidir.

2.7. Kreditin müddəti, 5 (beş) il güzəşt müddəti də daxil olmaqla, 20 (iyirmi) ildir. Borcalan həmin Sazişə əlavə edilmiş 3 №-li cədvəldə göstərilən Amortizasiya Cədvəlinə uyğun olaraq Kreditin əsas məbləğini geri ödəməlidir.

**Maddə 3**
**Layihənin icrası**

3.1. (a) Borcalan "Cəmiyyət" vasitəsilə bütün səy və bacarıqlarından istifadə etməklə, eləcə də müvafiq mühəndis texnologiyası, sağlam maliyyə və idarəçilik prinsipləri əsasında Layihəni icra etməli və bu məqsəd üçün tələb olunan maddi ehtiyatlan, imkanları, xidmət və digər vəsaitləri səfərbər etməlidir.

(b) Borcalan Layihənin həyata keçirilməsi üçün Cəmiyyəti Kredit vəsaitinə əlavə olaraq tələb olunan digər maliyyə ehtiyatlan ilə vaxtında təmin etməyi öhdəsinə götürür (o cümlədən Sazişin imzalandığı vaxt Layihənin smeta dəyərindən artıq olan qiymətdə yaranacaq hər hansı bir artımın ödənilməsi üçün tələb olunan maliyyə resursları da daxil olmaqla). Bütün bu məbləğlər Fondun məqbul hesab etdiyi şərtlər və qaydalar əsasında təmin edilməlidir.

3.2. Borcalan Layihəyə dair planları, xüsusiyyətləri, hesabatları, Layihə ilə bağlı müqavilələri, onun icrası üzrə vaxt cədvəllərini, lazımi malları və servis xidmətlərini, gələcəkdə onlara edilmiş dəyişiklik və əlavələri Fond tərəfindən tələb edilən təfsilatla Fonda təqdim etməlidir.

3.3. Borcalan Layihənin icrasına nəzarət etmək məqsədilə ixtisasları, təcrübələri, iş şərtləri Fond tərəfindən qəbul olunan peşəkar məsləhətçi-mühəndislər təyin etməlidir.

Borcalan Layihənin icrasını həyata keçirmək üçün Fondun məqbul hesab etdiyi şərtlər və qaydalar daxilində podratçıları işə cəlb etməlidir.

3.4. Borcalan Layihə üzrə onun payına düşən xərcləri ödəmək üçün müvafiq şəkildə illik büdcə ayrılmalarını öz üzərinə götürür. Borcalan Layihə üzrə yerli xərcləri ödəməyi öz öhdəsinə götürür.

3.5. Borcalan Kredit vəsaiti hesabına idxal olunan malların alınması, daşınması, eləcə də onların istismar və quraşdırma sahəsinə təchizatı ilə əlaqədar yaranmış təhlükə hallarının vurduğu ziyanı sığorta etməli və onların dəyişdirilməsi, yaxud təmiri üçün sərbəst istifadə oluna bilən valyuta ilə ödəməlidir.

3.6. Borcalan Kredit vəsaiti hesabına maliyyələşdirilən avadanlıqları və servis xidmətlərini yalnız Layihənin həyata keçirilməsi məqsədləri üçün sərf etməlidir.

3.8. Borcalan aşağıdakıları öz üzərinə götürür:

a) Layihə üzrə işlərin gedişatının (xərclər də daxil olmaqla) qeydə alınması, Kredit vəsaiti hesabına maliyyələşdirilən avadanlıq və xidmətlərin müəyyən olunması və onların istifadəsi üzrə məlumatların göstərilməsi, Layihədə nəzərdə tutulan bütün əməliyyatların, resursların və xərclərin əks olunması üçün müvafiq hesabatın aparılması;

b) Kreditə dair məqsədlərlə əlaqədar Fondun akkreditə edilmiş nümayəndələrinin səfər etməsi, Layihənin təyinatının öyrənilməsi, Kredit vəsaiti hesabına maliyyələşdirilən avadanlığın və servis xidmətlərinin, eləcə də hər hansı aidiyyəti protokol və sənədlərin yoxlanılması üçün bütün zəruri imkanların yaradılması;

c) Kredit vəsaitlərinin xərclənməsi və bu vəsait hesabına maliyyələşdirilən avadanlıq və servis xidmətləri ilə əlaqədar bütün zəruri məlumatların Fonda təqdim olunması.

3.9. Borcalan Layihənin icrası üçün lazım olan torpağın alınması və ona xas olan hüquqların əldə olunması istiqamətində müvafiq tədbirlər görməyi öhdəsinə götürür.

## Maddə 4
## Xüsusi öhdəliklər

4.1. (a) Borcalanla Fond arasındakı razılığa əsasən, dövlət əmlakının girov saxlanılması yolu ilə hər hansı bir xarici borc Fondun Krediti üzərində heç bir üstünlüyə malik deyildir. Bununla da, Borcalan öhdəsinə götürür ki, Fond digər şəkildə razılaşdırmayana qədər, hər hansı bir xarici borcun təminatı üçün Borcalanın əmlakı girov saxlanılarsa, bu zaman saxlanılma, fakta istinad olunaraq, qüvvəsində qalır və Fonda heç bir maddi ziyan vurmamaqla, Kreditin əsas məbləğinin bərabər və mütənasib qaydada ödənilməsinə təminat vermək üçün Kredit, Kredit faizi və Kredit üzrə digər xərclər bu şərtlərə əsasən

uzlaşdırılmalıdır. Bu baxımdan Borcalan əmlakın girov qoyulması zamanı həmin mənanın tətbiqini həyata keçirməlidir.

(b) Bu bəndin (a) paraqrafının müddəaları aşağıdakı hallara tətbiq edilmir:

i) mülkiyyətin satın alınması zamanı onun alıcılıq qiymətinin ödənilməsinə zəmanət vermək üçün əmlakın girov saxlanılması;

ii) satışından əldə olunan vəsaitlə geri ödənilmə müddəti bir ildən çox olmayan borcun ödənilməsini təmin edən ticarət mallarının girov saxlanılması;

iii) bank əməliyyatları zamanı geri ödənilmə müddəti bir ildən çox olmayan borcun ödənilməsinə zəmanət vermək üçün əmlakın girov saxlanılması.

4.2. Borcalan Layihənin müvafiq texniki standartlara uyğun olaraq həyata keçirilməsi və bu məqsədlə lazım olan vəsaitin ayrılması üçün müvafiq tədbirlər görməlidir.

4.3. Fondun Layihənin maliyyələşdirilməsi üçün etdiyi yardımı göstərmək məqsədilə Borcalan Layihədə nəzərdə tutulan obyektlərin birinin üzərində gözəçarpan yerdə münasib ölçüdə beton və ya metaldan hazırlanmış Xatirə Lövhəsinin asılmasını öz öhdəsinə götürür.

4.4. Borcalan özü, yaxud digərinin vasitəsilə Layihənin həyata keçirilməsi üçün cavabdeh cəmiyyət, departament və idarələrin, yaxud hər hansı digər tərəfin mühasibatlıq təcrübəsini, əməliyyatlarını, resurslarını və xərclərini əks etdirməklə uçot-sənədləşmə işlərini müvafiq şəkildə aparmalıdır.

4.5. Layihə başa çatdıqdan sonra, Son Müddət Tarixindən etibarən on iki ay ərzində, yaxud Fondun bu məqsədlə təyin etdiyi sonrakı digər vaxtda Borcalan Layihənin işinin yekunlaşması ilə bağlı hesabat hazırlamalı və Fonda təqdim etməlidir. Hesabat Fondun istədiyi formada olmalı və Layihənin icrası, ilkin əməliyyatlar, çəkilən xərclər və bundan əldə olunan səmərələr, Kredit Sazişi daxilində Borcalan tərəfindən öhdəliklərin icrası və Kredit hesabına qarşıya qoyulan məqsədlərə nail olunması məsələləri həmin hesabatda müfəssəl şəkildə öz əksini tapmalıdır.

## Maddə 5
## Fond tərəfindən görülən tədbirlər

5.1. Ümumi Şərtlərin 6.02-ci bəndində göstərilmiş məqsədlər üzrə aşağıdakı əlavə hallar müəyyənləşdirilir:

a) Bu bəndin (b) yarımparaqrafının şərtləri nəzərə alınmaqla:

1. Sazişin şərtlərinə əsasən, Borcalanın Layihənin maliyyələşdirilməsi üçün ona ayrılmış hər hansı bir kredit məbləğindən vəsait çıxarması hüququ tam, yaxud qismən dayandırıldıqda və ya ləğv edildikdə;

2. həmin Kredit əvvəlcədən əldə edilmiş razılığa əsasən geri ödənilməli olduqda.

b) Borcalanın Fondun qəbul etdiyi aşağıdakı hallarla bağlı dəlili olduqda (a) yarımparaqrafının şərtləri tətbiq olunmur:

1. Saziş əsasında bu cür dayandırılma, yaxud ləğv edilmə hallarının Borcalanın öz öhdəliklərini yerinə yetirməməsi üzündən yaranmadığı təqdirdə;

2. bu Saziş daxilində, Borcalanın üzərinə düşən öhdəliklərə uyğun olan şərtlərə və qaydalara əsasən, Layihənin həyata keçirilməsi üçün ona digər mənbələrdən vəsait ayrıldığı təqdirdə.

5.2. Ümumi Şərtlərin 7.1-ci bəndində göstərilən məqsəd üzrə (d) paraqrafına uyğun olaraq aşağıda göstərilmiş hallar, yəni bu Sazişin 5.1-ci bəndinin (a-2) yarımbəndində göstərilmiş hallar yarana bilər.

**Maddə 6**
**Sazişin qüvvəyə minməsi və başa çatması**

6.1. Sazişin imzalandığı tarixdən 6 aylıq müddət Ümumi Şərtlərin 12.04-cü bəndində nəzərdə tutulmuş məqsədlər üçün müəyyənləşdirilir.

**Maddə 7**
**Borcalanın nümayəndəsi. Ünvanlar**

7.1. Ümumi Şərtlərin 11.03-cü bəndində nəzərdə tutulan məqsədlər üzrə Borcalanın maliyyə naziri onun nümayəndəsi hesab edilir.

7.2. Ümumi Şərtlərin 11.01-ci bəndində nəzərdə tutulan məqsədlərə müvafiq olaraq, aşağıdakı ünvanlar müəyyənləşdirilir:

**Fond üçün:**
Səudiyyə İnkişaf Fondu
Poçt indeksi: 50483
Ər-Riyad 11523
Səudiyyə Ərəbistanı Krallığı
Faks: +966-1-464-7450
Elektron poçt: info@sfd.gov.sa

**Borcalan üçün:**
Maliyyə Nazirliyi
Səməd Vurğun, 83
Bakı, 1022
Azərbaycan Respublikası
Faks: +994 12 4044720
+994 12 4044721
Elektron poçt: office@maliyye.gov.az

**Cəmiyyət üçün:**
"Azərsu" ASC
Azərbaycan Respublikası
Faks: +994 12 4315151

Elektron poçt: office@azersu.az

Bu Sazişin Tərəflərinin səlahiyyətli nümayəndələri vasitəsilə Azərbaycan Respublikasının Bakı şəhərində Sazişin əvvəlində göstərilmiş tarixdə, ərəb dilində iki (2) orijinal nüsxədə imzalandığı təsdiq olunur.

| Azərbaycan Respublikası<br>adından<br>Nizaməddin RZAYEV | Səudiyyə İnkişaf Fondu<br>Adından<br>Yusuf bin İbrahim əl-BƏSSAM |
|---|---|
| "Azərsu" ASC-nin prezidenti | rəis müavini, icraçı direktor |

*Cədvəl № 1*

**Kredit vəsaitlərinin çıxarılması**

a) Aşağıda göstərilən cədvəl Kredit vəsaiti hesabına maliyyələşdirilən əşyaların kateqoriyalarını, hər kateqoriya üzrə Kreditin məbləğini və hər bir kateqoriyada nəzərdə tutulan xərclərin faizini göstərir:

| Kateqoriya | | Ayrılan kreditin məbləği(Səudiyyə rialı ilə) | Maliyyələşdirilən xərclərin faizi |
|---|---|---|---|
| 1. | İnşaat işləri və avadanlığın yerləşdirilməsi (Layihənin A hissəsinin 5, 6, 9-cu böl mələri) | 80,000,000 | Ümumi xərclərin 50 %-i |
| 2. | Məsləhət xidmətləri | 6,000,000 | Ümumi xərclərin 100 %-i |
| 3. | Ehtiyat | 7,750,000 | |
| Cəmi | | 93,750,000 | |

b) (a) paraqrafı üzrə verilmiş şərtlərə baxmayaraq, aşağıdakı hallarda Kredit vəsaitlərinin çıxarılmasına yol verilmir:

1. Bu Sazişin imzalanma tarixindən əvvəl edilən xərclər üzrə;

2. Borcalanın ərazisində mallar və ya xidmətlər, yaxud idxal, istehsal, satınalma və təchizat üçün vergi rüsumları alındıqda, yaxud öhdəsində olan vergi rüsumları üzrə.

c) Kreditin ayrılmasına və ya (a) paraqrafı üzrə cədvəldə verilmiş ödəniş faizlərinə baxmayaraq, Fond dəqiq hesablamalardan sonra müəyyən kateqoriya üçün ayrılmış vəsaitin bu kateqoriyada ümumi xərclərin razılaşdırılmış faizini ödəməyə kifayət etməyəcəyini müəyyən etsə, Fond Borcalana bildirməklə:

1. ehtiyat kateqoriyası üzrə saxlanılmış Kredit vəsaitlərindən, yaxud digər bir kateqoriya üçün nəzərdə tutulmuş və ya ayrılmış Kredit vəsaitinin digər xərcləri ödəməyə ehtiyacı qalmadığı şəraitdə həmin Kateqoriya üzrə yaranan çatışmazlıqların aradan qaldırılması üçün tələb olunan məbləğ əsasında əlavə vəsait ayıra bilər;

2. əgər yenidən ayrılan vəsait hesab edilən çatışmazlığı tam ödəmirsə, həmin kateqoriya üzrə bütün xərclər ödənilənə qədər, həmin kateqoriya üzrə sonrakı vəsait çıxarılmasını davam etdirmək məqsədilə bu kimi xərclər üzrə ayırmaları azaldacaq.

*Cədvəl № 2*

**Layihənin təsviri**

Layihənin məqsədi paytaxt Bakının ətraf əraziləri üzrə Bakı şəhərində 20-ci Sahə ərazisinin və onun ətrafındakı Bibiheybət, Badamdar və Bayıl qəsəbələrinin infrastrukturu, şəhər və ətraf mühit xidmətlərinin təkmilləşdirilməsi, birbaşa paytaxt Bakının ətraf əraziləri üzrə su təchizatı və kanalizasiya şəbəkəsi sistemlərinin yenidən qurulması və genişləndirilməsindən ibarətdir.

Layihə 2 hissədən ibarətdir:

a) İnşaat işləri və avadanlıq Su təchizatı sistemi

1. Ümumi uzunluğu 22 km və diametri 500 mm olan magistral boru xətti;

2. məhsuldarlığı 1400 m3/saat olan mərkəzi nasos stansiyası;

3. hər birinin həcmi 2,000 m3 olan 4 su anbarı;

4. hər birinin məhsuldarlığı 400 m3/saat olan 4 nasos stansiyası;

5. ümumi uzunluğu 80 km və diametri 50-300 mm olan su təchizatı şəbəkəsi;

6. su sayğacları. Kanalizasiya sistemi

7. Ümumi uzunluğu 72 km və diametri 200-600 mm olan kanalizasiya şəbəkəsi;

8. hər birinin məhsuldarlığı 400 m3/saat olan 2 nasos stansiyası;

9. məhsuldarlığı 50,000 m3/gün olan çirkab su təmizləyici qurğu;

10. ümumi uzunluğu 16 km və diametri 300-400 mm olan 2 təzyiqli boru;

11. çirkab suların bir hissəsinin çirkab su təmizləyici qurğuya axıdılması üçün uzunluğu 4 km və diametri 1,000 mm olan kollektor.

" b) Məsləhət xidmətləri: İşçi layihələrin, tender sənədlərinin hazırlanması, Layihənin ikinci hissəsinin həyata keçirilməsi və nəzarət.

Layihənin ümumi məbləği 63 milyon ABŞ dolları təşkil edir ki, bu da təqribən 236,25 milyon Səudiyyə rialına bərabərdir. Layihənin 31 dekabr 2011-ci ilədək başa çatdırılacağı gözlənilir.

*Cədvəl № 3*

**Amortizasiya cədvəli**

| Ödəniş № | Ödəniş tarixi | Ödəniş məbləği (Səudiyyə rialı ilə) |
|---|---|---|
| 1 | 15 dekabr 2014-cü il | 3,125,000 |
| 2 | 15 iyun 2015-ci il | 3,125,000 |
| 3 | 15 dekabr 2015-ci il | 3,125,000 |
| 4 | 15 iyun 2016-cı il | 3,125,000 |

| | | |
|---|---|---|
| 5 | 15 dekabr 2016-cı il | 3,125,000 |
| 6 | 15 iyun 2017-ci il | 3,125,000 |
| 7 | 15 dekabr 2017-ci il | 3,125,000 |
| 8 | 15 iyun 2018-ci il | 3,125,000 |
| 9 | 15 dekabr 2018-ci il | 3,125,000 |
| 10 | 15 iyun 2019-cu il | 3,125,000 |
| 11 | 15 dekabr 2019-cu il | 3,125,000 |
| 12 | 15 iyun 2020-ci il | 3,125,000 |
| 13 | 15 dekabr 2020-ci il | 3,125,000 |
| 14 | 15 iyun 2021-ci il | 3,125,000 |
| 17 | 15 dekabr 2022-ci il | 3,125,000 |
| 18 | 15 iyun 2023-cü il | 3,125,000 |
| 19 | 15 dekabr 2023-cü il | 3,125,000 |
| 20 | 15 iyun 2024-cü il | 3,125,000 |
| 21 | 15 dekabr 2024-cü il | 3,125,000 |
| 22 | 15 iyun 2025-ci il | 3,125,000 |
| 23 | 15 dekabr 2025-ci il | 3,125,000 |
| 24 | 15 iyun 2026-cı il | 3,125,000 |
| 25 | 15 dekabr 2026-cı il | 3,125,000 |
| 26 | 15 iyun 2027-ci il | 3,125,000 |
| 27 | 15 dekabr 2027-ci il | 3,125,000 |
| 28 | 15 iyun 2028-ci il | 3,125,000 |
| 29 | 15 dekabr 2028-ci il | 3,125,000 |
| 30 | 15 iyun 2029-cu il | 3,125,000 |
| | Yekun: | 93,750,000 |

*(İmza)*

## Kredit müqavilələrinə tətbiq edilən
## ÜMUMİ ŞƏRTLƏR

*Fondun Direktorlar Şurasının 11/14 №-li qərarı ilə qəbul edilmişdir.*
*Hicri tarixi ilə 29 Rəcəb 1396-cı il Miladi tarixi ilə 26 iyul 1976-cı il*

### Maddə I
### Ümumi şərtlərin Kredit müqavilələrinə tətbiqi

Bənd 1.01. Ümumi Şərtlərin tətbiq olunması. Müəyyən qayda və şərtlərdən ibarət olan Ümumi Şərtlər ümumi olaraq Səudiyyə İnkişaf Fondu tərəfindən verilən kreditlərə tətbiq

edilir. Bu Şərtlər bu cür kredit ayrılmasını nəzərdə tutan hər hansı bir kredit müqaviləsinə tətbiq edilir.

Bənd 1.02. Kredit müqavilələri ilə uyğunsuzluq. Əgər bu Kredit Müqaviləsinin hər hansı şərti Ümumi Şərtlərlə uyğunsuzluq təşkil edirsə, Kredit Müqaviləsinin şərti əsas götürülür.

## Maddə II
## İzahlar, başlıqlar

Bənd 2.01. İzahlar. Ümumi Şərtlərdə istifadə edilən aşağıdakı terminlərin mənası belədir:

1. "Fond" dedikdə Səudiyyə İnkişaf Fondu başa düşülür.
2. "Kredit Müqaviləsi" termini bu Ümumi Şərtlərin tətbiq ediləcəyi hansısa bir müəyyən kredit müqaviləsi deməkdir, bu şərtlər həmçinin Kredit Müqaviləsinə olan əlavələrə və cədvəllərə də tətbiq edilir.
3. "Kredit" termini Kredit Müqaviləsində nəzərdə tutulan krediti bildirir.
4. "Borcalan" termini Kredit Müqaviləsinə tərəfdar olan ölkənin təmsil olunduğu Hökuməti bildirir.
5. "Səudiyyə rialı" və ya "rial" dedikdə Səudiyyə Ərəbistanı Krallığının pul vahidi başa düşülür.
6. "Kredit məbləği" termini krediti alan tərəfın - Borcalanın adına Fondun sənədləri üzrə açılan kredit hesabını nəzərdə tutur.
7. "Layihə" termini Kredit Müqaviləsində göstərildiyi kimi icrası üçün kredit ayrılan layihə və ya proqramı nəzərdə tutur, Fond və Borcalan arasındakı müqaviləyə əsasən, onun məzmununa vaxtaşırı düzəlişlər edilə bilər.
8. "Mallar" termini layihə üçün lazım olan avadanlığı, ləvazimatı, işləri və digər xidmətləri nəzərdə tutur; malların dəyəri isə onların Borcalanın ölkəsinə idxal edilməsi üçün sərf olunan xərcləri ifadə edir.
9. "Qüvvəyəminmə tarixi" Kredit Müqaviləsinin 12.03-cü bənddə verildiyi kimi qüvvəyə minmə və qüvvədə olma tarixini bildirir.
10. "Vergilər" termini Kredit Müqaviləsinin qüvvədə olma tarixi müddətində hər hansı yığım, rüsum və vergiləri nəzərdə tutur.
11. "Son tarix" Kredit Müqaviləsində göstərilən tarixdir, Fond Borcalana bildirməklə Borcalanın Kredit hesabında qalan məbləği çıxarmaq hüququnu dayandıra bilər.

Bənd 2.02. İstinadlar. Ümumi şərtlərdə istinad edilən maddələr və bəndlər bu Ümumi Şərtlərin maddələri və bəndləridir.

Bənd 2.03. Başlıqlar. Maddələrin və bəndlərin başlıqları və mündəricat yalnız istinad olunması üçün daxil edilib və bu Ümumi Şərtlərin tərkib hissəsi deyil.

## Maddə III
## Kredit hesabı:

**Kredit faizi və digər xərclər; geri ödəmə; ödəmə yeri**

Bənd 3.01. **Kredit hesabı.** Kreditin məbləği Kredit hesabına köçürülür və bu hesabdan Kredit Müqaviləsinə, bu Ümumi Şərtlərə və Fondun müəyyənləşdirdiyi əməliyyat prosedurlarına uyğun olaraq Borcalan tərəfindən çıxarılır.

Bənd 3.02. **Kredit faizi və digər xərclər.**

a) Borcalan ödənilmiş və yerdə qalan vəsaitin əsas məbləği daxilində vaxtaşırı Kredit Müqaviləsində nəzərdə tutulan dərəcədə kredit faizi ödəyəcək. Kredit faizi məbləğlərin çıxarıldığı tarixdən üst-üstə yığılır.

b) Borcalan hər il 5.02-ci bəndə uyğun olaraq Fondun tətbiq etdiyi hər hansı xüsusi öhdəlik üzrə əsas məbləğin bir faizinin 0,5-i qədərində əlavə faiz ödəməlidir (1%-in 1/2).

Bənd 3.03. **Kredit faizi və digər xərclərin hesablanması.** Kredit faizi və digər xərclər 30 gündən ibarət 12 ay olmaqla, yəni 360 gün əsasında bir ildən az müddətə hesablanmalıdır.

Bənd 3.04. **Geri ödəmə.**

Borcalan Kredit Müqaviləsinin geri ödəmə cədvəlinə uyğun olaraq Kredit Hesabından çıxarılan əsas məbləği geri ödəməlidir.

Borcalanın bütün kredit faizlərinin və digər xərclərin ödənilməsindən sonra və 45 gündən az olmayaraq Fonda bildiriş göndərməklə, geri ödəmə vaxtından əvvəl olaraq qabaqcadan I) yerdə qalan kreditin əsas məbləğinin hamısını və ya II) hər hansı müəyyən məbləğin hamısını geri ödəmək hüququ var, belə olan halda əvvəlcədən ödəniş tarixinə qədər, Kreditin ödənilməli olan qalıq hissələri qalmamalıdır.

Bənd 3.05. **Ödəniş yeri.** Əsas məbləğ, kredit faizi və digər xərclər Fondun müəyyənləşdirdiyi yerlərdə ödənilməlidir.

## Maddə IV
## Valyuta şərtləri

Bənd 4.01. **Vəsait çıxarmalarının həyata keçiriləcəyi valyuta.**

Kredit üzrə ödəmələr Səudiyyə rialı ilə aparılacaq.

Fond onun təmsil olunduğu nümayəndəsi kimi, Borcalanın xahişi ilə Kredit hesabından çıxarılan və Kredit məbləği ilə ödənişləri aparmaq üçün belə valyutaları ala bilər, bunlar Səudiyyə Ərəbistanı Valyuta Agentliyinin əməliyyatlarında istifadə edilən valyutalar olmalıdır.

Bənd 4.02. **Əsas məbləğ, kredit faizi və digər xərclərin ödəniləcəyi valyuta.**

Kreditin əsas məbləği, kredit faizi və digər xərclər Səudiyyə rialı ilə ödənilməlidir.

Fond onun təmsil olunduğu nümayəndəsi kimi, Borcalanın xahişi ilə əsas kreditin, kredit faizinin və digər xərclərin Kredit müqaviləsi əsasında geri ödənilməsi üçün Fondun qəbul etdiyi valyuta və ya valyutalarla Borcalana kifayət qədər rial verə bilər. Fond ödənişi rialla qəbul etdiyi halda, Borcalanın Kredit Müqaviləsi əsasında tələb olunan ödənişi yerinə yetirməsi məqbul hesab edilir.

Bənd 4.03. **Valyutaların dəyərləndirilməsi.** Kredit Müqaviləsinin məqsədi üçün müvafiq valyutanın digər valyutaya nisbətən məzənnəsini müəyyənləşdirmək lazım gəldikdə, bu, Səudiyyə Ərəbistanı Valyuta Agentliyinin müəyyənləşdirdiyi dəyər əsasında qiymətləndirilməlidir.

## Maddə V
## Kredit hesabından vəsait çıxarılması

Bənd 5.01. **Kredit hesabından vəsait çıxarılması.** Kredit Müqaviləsinə və bu Ümumi Şərtlərə uyğun olaraq, Borcalana Kredit hesabından Fond qaydaları və prosedurları əsasında məbləğ çıxarmaq səlahiyyəti verilir.

Bənd 5.02. **Fondun üzərinə götürdüyü xüsusi öhdəlik.** VI maddəyə uyğun olaraq, Borcalan və ya Fond tərəfindən olan hər hansı bir dayandırma və ya ləğvetmə hallarına baxmayaraq, tərəflər arasında razılaşdırılmış şərtlər daxilində və Borcalanın xahişinə əsasən, Fond Borcalana Kredit Müqaviləsi əsasında maliyyələşdirilən xərclərin ödənilməsi üçün məbləğ ayrılması barədə yazılı surətdə öz üzərinə xüsusi öhdəlik götürə bilər.

Bənd 5.03. **Kreditdən vəsait çıxarma və ya xüsusi öhdəlik üçün müraciət.** 5.02-ci bəndə əsasən, Borcalan Kredit hesabından hər hansı məbləği çıxarmaq istədikdə və ya Fonddan üzərinə hər hansı bir xüsusi öhdəlik götürməyi xahiş etdikdə, Borcalan Fondun tərtib etdiyi bəndlər və razılaşmalardan ibarət ərizə formasını doldurub Fonda təqdim edir. Layihə xərclərinə aid məbləğ çıxarmaq üçün xahişlər bu bənddə verilmiş müvafiq sənədlərlə birgə təqdim edilməlidir.

Bənd 5.04. **Vəsaitin çıxarılması üçün müraciət etmək səlahiyyətini təsdiq edən sənədlər.** Borcalan bu cür formada vəsaitin çıxarılması üçün müraciət ərizəsini imzalayacaq şəxs və ya şəxslərin səlahiyyətini təsdiq edən dəlilləri və həmin şəxsin imza nümunəsini Fonda təqdim etməlidir.

Bənd 5.05. **Əsaslandırıcı dəlillər.** Fondun xahiş edəcəyi təqdirdə Borcalan qeyd olunan sənədləri və əsaslandırıcı dəlillər təqdim etməlidir. Ərizə ilə xahiş edilən vəsaitin çıxarılmasına razılıq verməmişdən əvvəl və hətta ondan sonra Fondun bu cür sənəd və dəlilləri tələb etmək hüququ var.

Bənd 5.06. **Müraciət ərizələrinin və sənədlərin əsaslandırılması.** Fondu qane etmək üçün hər bir müraciət ərizəsi, müvafiq sənədlər və digər dəlillər forma və məzmunca əsaslandırılmalıdır ki, Borcalana Kredit hesabından məbləğ çıxarmaq və ondan Kredit Müqaviləsinin məqsədləri üçün istifadə etmək səlahiyyəti verilsin.

Bənd 5.07. **Ayrılan məbləğin Fond tərəfindən ödənişi.** Fond Kredit hesabından Borcalana ayrılan məbləği yalnız Borcalana və onun xahişinə əsasən ödəməlidir.

## Maddə VI
## Ləğvetmə və dayandırılma

Bənd 6.01. Borcalan tərəfindən ləğvetmə. Borcalan Fonda bildirməklə Kreditin qalan məbləğini ləğv edə bilər, yalnız bu hal 5.02-ci bənddə göstərilmiş xüsusi öhdəlik əsasında alınmış kreditə şamil olunmur.

Bənd 6.02. **Fond tərəfindən dayandırılma.** Əgər aşağıda göstərilmiş hallardan hər hansı biri yaranıbsa və artıq mövcud olaraq davam edirsə, Fond Borcalana bildirməklə onun Kredit hesabından vəsait çıxarma hüququnu tam və ya qismən dayandıra bilər:

a) Fond və Borcalan arasında imzalanmış Kredit Müqaviləsi və ya digər kredit razılaşması daxilində Borcalan əsas məbləği, kredit faizini və ya digər ödənişləri yerinə yetirə bilmədikdə;

b) Borcalan Kredit Müqaviləsi daxilində hər hansı bir öhdəliyi yerinə yetirə bilmədikdə;

c) Borcalan bu Müqavilə çərçivəsində öz öhdəliklərini icra edə bilmədiyi təqdirdə, Fond hər hansı müqavilə daxilində Borcalanın vəsait çıxarma hüquqlarını tam və ya qismən dayandırdıqda;

d) Kredit Müqaviləsinin başlandığı tarixdən, Layihənin icrasına və Borcalanın üzərinə düşən öhdəliklərin yerinə yetirilməsinə maneə törədən fövqəladə hallar yarandıqda;

e) Kredit Müqaviləsi imzalandığı tarixdən sonra və qüvvəyə minmə tarixindən əvvəl, hətta Kredit Müqaviləsi qüvvəyə mindiyi tarixdə, Fonda Borcalanın Kredit hesabından vəsait çıxarmaq hüququnu dayandırmağa imkan verən hallar yarandıqda;

f) Kredit Müqaviləsində müəyyən edilən hər hansı bir digər hal özünü büruzə verdikdə.

Belə halların mövcud olduğu ərəfədə və Borcalanın öz hüquqlarını bərpa etməsi barədə Fonda bildiriş təqdim olunmayana qədər, Borcalanın Kredit hesabından vəsait çıxarmasının tam və ya qismən şəkildə dayandırılması davam etdirilir; lakin bildiriş təqdim olunan zaman çıxarışlar etmək hüququnun bərpa olunması üçün müvafiq şərtlər yazıda göstərilməlidir, əks təqdirdə heç bir bildiriş bu bənddə verilən müvafiq hal ilə əlaqədar Fondun hər hansı hüququna, səlahiyyətinə təsir edə və ya onları zəiflədə bilməz.

Bənd 6.03. **Fond tərəfindən ləğvetmə.**

a) əgər Borcalanın Kredit hesabından vəsait çıxarmaq hüququ davamlı olaraq 60 gün ərzində dayandırılıbsa və ya

b) Borcalanla məsləhətləşəndən sonra Fond ayrılmış Kredit məbləğinin Layihə xərclərinə sərf edilməsinə ehtiyac olmadığını müəyyənləşdirərsə və yaxud

son tarixdən sonra Kredit hesabından çıxarılmamış vəsait qalarsa, Fond Borcalana bildirməklə onun bu hesabdan vəsait çıxarmaq hüquqlarını dayandıra bilər. Bu bildirişin verilməsindən sonra Kredit məbləği ləğv edilir.

Bənd 6.04. **Fond tərəfindən ləğvetmə və ya dayandırılmanın təsir etmədiyi xüsusi öhdəlik əsasında ödənilən məbləğlər.** 5.02-ci bəndə uyğun olaraq Fond tərəfindən ləğvetmə və ya dayandırılma hallan Fondun tətbiq etdiyi xüsusi öhdəlik əsasında ödənilən məbləğə şamil olunmur.

Bənd 6.05. **Ləğvetmə işinin Kreditin geri ödənilməsinə tətbiq olunması.** Tərəflər arasında başqa cür razılaşdırılmayıbsa, hər hansı bir ləğvetmə proseduru proporsional

olaraq, əsas Kredit vəsaiti üzrə müxtəlif geri ödəmə məbləğlərinə tətbiq edilməli və ləğvetmədən sonra yerinə yetirilməli olan ödəmələrə şamil edilməlidir.

Bənd 6.06. **Dayandırılma və ləğvetmədən sonra müqavilə şərtlərinin qüvvədə olması.** Hər hansı bir ləğvetmə və ya dayandırılmaya baxmayaraq, Kredit Müqaviləsində nəzərdə tutulan bütün şərtlərin etibarlılığı və effektivliyi dəyişməz qalır.

## Maddə VII
## Geri ödəmə müddətinin sürətləndirilməsi

Bənd 7.01. **Sürətləndirmə halları.** Aşağıda verilən hallardan hər hansı biri qarşıya çıxdıqda və aşağıda verilən müddətdə davam etdikdə, Fond öz növbəsində Borcalana bildirməklə kredit faizi və digər xərclərlə birgə ödənilməli olan məbləği elan etməlidir və bu cür bildirişə əsasən, əsas məbləğ, kredit faizi və digər xərclər dərhal ödənilməlidir:

a) mövcud Kredit Müqaviləsi əsasında əsas məbləğin, kredit faizinin və digər xərclərin ödənilməsində defolt (borcları ödəmədən imtina) yaranarsa və bu, 60 gün müddətində davam edərsə,

b) Fond və Borcalan arasında bağlanan hər hansı bir Kredit Müqaviləsi əsasında əsas məbləğin, kredit faizinin və digər xərclərin ödənilməsində defolt yaranarsa və bu, 60 gün müddətində davam edərsə, Kredit Müqaviləsi əsasında Borcalan tərəfindən öhdəliklərin hər hansı birinin yerinə yetirilməsində defolt yaranarsa və bu, Fond tərəfindən Borcalana bildiriş göndərəndən sonra 90 gün ərzində davam edərsə,

bu bənddə göstərilən məqsədlərə əməl etmək üçün Kredit Müqaviləsi əsasında digər hallar yaranarsa və müəyyən müddətdə davam edərsə.

## Maddə VIII
## Vergi və məhdudiyyətlər, Fondun toxunulmazlığı və imtiyazları

Bənd 8.01. **Vergilər**

a) Kreditin əsas məbləği, kredit faizi və digər xərclər Borcalanın ərazisində hər cür vergi və rüsumlardan azad olmalıdır. Belə vergilər olsa belə, onlar Borcalan tərəfindən ödənilməlidir.

b) Kredit Müqaviləsi Borcalanın ərazisində rəsmiləşdirmə, icra və qeydiyyatla əlaqədar bütün vergi və rüsumlardan azad edilməlidir.

Bənd 8.02. **Məhdudiyyətlər.** Kreditin əsas məbləği, kredit faizi və digər xərclər Borcalanın ərazisində mövcud tətbiq olunan qanunların yarada biləcəyi məhdudiyyətlərdən azad olmalıdır.

Bənd 8.03. **Sənədləşdirmə və rabitə imtiyazları.** Fondun bütün sənədləri, qeydlər və yazışmalar və buna oxşar materiallar Borcalan tərəfindən məxfi sayılmalıdır. Borcalan Fondu bütün sənəd nəşrlərinin yoxlanılması və senzura üçün lazım olan tam azadlıqla təmin etməlidir.

Bənd 8.04. **Mülkiyyət toxunulmazlığı.** Fondun Borcalanın ərazisində bütün mülkiyyəti, aktivləri və gəlirləri müsadirə və bir sıra bu kimi vasitələrdən azad olaraq toxunulmazdır.

## Maddə IX
## Əməkdaşlıq və məlumat mübadiləsi

Bənd 9.01. **Əməkdaşlıq və məlumat mübadiləsi**

a) Fond və Borcalan kreditin məqsədlərinin tam şəkildə həyata keçirilməsinə təminat vermək üçün əməkdaşlıq etməlidirlər. Ona görə də: I) Fond və Borcalan vaxtaşırı onların hər hansı birinin xahişi ilə və nümayəndələri vasitəsilə Layihənin mövcud inkişaf vəziyyəti, əldə edilən mənfəətlər və Kredit Müqaviləsində nəzərdə tutulan öhdəliklərin icrası və kreditə aid digər məsələlərlə bağlı məlumat mübadiləsi apara bilərlər; II) Fond və Borcalan vaxtaşırı olaraq, hər hansı bir Tərəfin xahişinə əsasən, digər Tərəfi Layihənin hazırkı iş vəziyyəti, əldə olunan mənfəətlərə və kreditin ümumi statusuna dair məlumatla təmin etməlidir.

b) Layihənin inkişafına və kreditin məqsədlərinin reallaşdırılmasına (Layihə xərclərində əhəmiyyətli artım da daxil olmaqla) dair məsələlərdə Fond və Borcalan, yəni Tərəflərdən hər hansı biri Kredit Müqaviləsi daxilində üzərinə düşən öhdəliklərin icra edilməsinə çətinlik törədən hər hansı bir təhlükə və maneə barədə qarşı Tərəfi dərhal xəbərdar etməlidir.

c) Kreditə aid məsələlərlə bağlı Fondun akkreditə edilmiş nümayəndələrinin Borcalanın ölkəsinin hər hansı bir bölgəsinə səfəri üçün şərait yaradılmalıdır.

d) Borcalan Fondun akkreditə edilmiş nümayəndələrinin kredit məsələsi ilə əlaqədar Borcalanın ölkəsinə səfər etməsi üçün yaradılmış lazımi şəraiti artırmalı və bu nümayəndələr üçün diplomatik missiya nümayəndələri üçün nəzərdə tutulan toxunulmazlıq verilməlidir.

## Maddə X
## Kredit Müqaviləsinin hüquqi gücə malik olması: hüquqların həyata keçirilməməsi (onlardan istifadə olunmaması), Arbitrasiya

Bənd 10.01. **Kredit Müqaviləsinin hüquqi gücə malik olması.** Borcalanın mövcud qanunlarına və ya onun hər hansı inzibati ərazi vahidlərinə baxmayaraq, Kredit Müqaviləsi əsasında Fondun və Borcalanın hüquq və öhdəlikləri etibarlı sayılır və hüquqi gücə malikdir. Nə Bank, nə də Borcalan heç bir şəraitdə hər hansı bir səbəb üzündən Kredit Müqaviləsinin və ya onun Ümumi Şərtlərinin etibarsızlığı barədə tələb irəli sürə bilər.

Bənd 10.02. **Hüquqların həyata keçirilməməsi (onlardan istifadə olunmaması)**. Hər hansı bir Tərəf Kredit Müqaviləsi daxilində öhdəlikləri yerinə yetirmədikdə (pul ödənişlərindən boyunqaçırma), qarşı Tərəf malik olduğu hüquq və səlahiyyətləri, eləcə də müvafiq tədbir görmə vasitələrini reallaşdırmaq üçün yubanma və etinasızlığa yol verərsə, bu onun malik olduğu hüquq və səlahiyyətlərə mənfi təsir etmir və ya onları zəiflətmir və

yaxud bu həmin Tərəfin öz hüquq və səlahiyyətlərini həyata keçirmək, müvafiq tədbirlər görmək işindən imtina etməsi hesab olunmur və yaxud hər hansı bir ödəmədən boyunqaçırma halına qarşı susması razılıq əlaməti sayılmır. Eləcə də qarşı tərəf hər hansı boyunqaçırma halına qarşı iddia irəli sürməzsə, ona xas olan hüquq və səlahiyyətlər öz gücünü saxlayır.

Bənd 10.03. **Arbitrasiya**. Kredit Müqaviləsi Tərəfləri arasındakı hər hansı ziddiyyət və ya Kredit Müqaviləsinin bir tərəfinin digər Tərəf üzərində hər hansı tələbi Tərəflərin razılığı ilə həll olunur və bu razılıq əldə edilmədikdə ziddiyyət və ya tələb aşağıda göstərilən Arbitraj Məhkəməsinə təqdim edilir:

a) Arbitraj Məhkəməsi aşağıdakı kimi təyin olunan 3 arbitrdən ibarət olmalıdır. Birinci arbitr - Bank tərəfindən, ikinci arbitr - Borcalan tərəfindən və üçüncü arbitr (burada Superarbitr adlandırılacaq) Tərəflərin razılığı ilə və ya onlar razılığa gələ bilmədikdə, İslam Konfransı Təşkilatının Prezidenti tərəfindən təyin edilməlidir. Əgər Tərəflərdən hər hansı biri arbitr təyin edə bilmirsə, digər Tərəfin xahişi ilə bu arbitr İslam Konfransı Təşkilatının Prezidenti tərəfindən təyin edilə bilər. Əgər bu bəndə əsasən təyin edilmiş arbitr istefa versə, vəfat etsə və ya fəaliyyət göstərə bilməsə, onu əvəz edəcək arbitr eyni qayda ilə təyin edilməli və əvvəlki arbitrin vəzifə və səlahiyyətlərini daşımalıdır.

b) Bu bəndə əsasən arbitrasiya qaydaları iddiası olan Tərəfin digər Tərəfə bildiriş göndərməsilə tətbiq edilə bilər. Bu bildirişdə yaranan ziddiyyətin mahiyyəti və ya arbitrasiyaya təqdim ediləcək tələbi, lazım olan köməyi və bu prosedurları irəli sürən Tərəfin təyin etdiyi arbitrin adı əks etdirilməlidir. Belə bildirişdən sonra 30 gün ərzində digər Tərəf bu prosedurları irəli sürən Tərəfə öz arbitrinin adını bildirməlidir.

c) Əgər arbitrasiya prosedurlarının tətbiqi ilə əlaqədar bildirişdən sonrakı 60 gün ərzində arbitrlər razılığa gələ bilmirlərsə, hər hansı tərəf bu bəndin a) hissəsində göstərilən qaydada Superarbitrin təyin olunmasını xahiş edə bilər.

d) Arbitraj Məhkəməsi Superarbitrin təyin etdiyi vaxtda və yerdə çağırılmalıdır. Bundan sonra Arbitraj Məhkəməsi çağırışın nə vaxt və harada keçiriləcəyini müəyyən etməlidir.

e) Arbitraj Məhkəməsi öz səlahiyyəti dairəsində bütün məsələləri həll etməli və bu bəndin şərtlərinə və Tərəflərin qərarına əsasən proseduru müəyyənləşdirməlidir. Arbitraj Məhkəməsinin bürün qərarları səs çoxluğu ilə qəbul edilməlidir.

f) Arbitraj Məhkəməsi hər iki Tərəfə açıq dinləmə imkanı yaratmalı və qərarları yazılı surətdə verməlidir. Boyunqaçırma halları zamanı belə qərar çıxarıla bilər. Arbitraj Məhkəməsinin əksəriyyəti tərəfindən imzalanan qərar Məhkəmənin qərarı sayılmalıdır. Qərarın imzalanmış surəti hər bir Tərəfə verilməlidir. Bu bəndin şərtlərinə uyğun verilən hər hansı bir qərar Kredit Müqaviləsinin Tərəfləri üçün son vacib qərar hesab edilir. Hər bir Tərəf bu qərara tabe olmalı və ona riayət etməlidir.

g) Tərəflər arbitrlərin və arbitrasiya prosedurlarının aparılması üçün tələb edilən şəxslərin ödəniş məbləğini müəyyən etməlidirlər. Əgər Arbitraj Məhkəməsinə qədər Tərəflər məbləğ barədə qərara gələ bilməsələr, Arbitraj Məhkəməsi vəziyyətə uyğun müvafiq məbləğ təyin edə bilər. Hər bir Tərəf arbitrasiya prosedurları üçün öz xərclərini

ödəməlidir. Arbitraj Məhkəməsinin xərcləri Tərəflər arasında bərabər bölünməlidir. Arbitraj Məhkəməsi üçün xərclərin bölünməsi və ödənilməsinə dair məsələlər Arbitraj Məhkəməsi tərəfindən müəyyənləşdirilir.

h) Arbitraj Məhkəməsi Səudiyyə Ərəbistanı Krallığında tətbiq edilən qaydaları və qanunları və bərabərlik prinsiplərini tətbiq etməlidir.

i) Bu bənddə verilən arbitrasiya qaydaları Kredit Müqaviləsinin Tərəfləri arasında olan ziddiyyətləri və bir Tərəfin qarşı Tərəfə olan hər hansı tələbi ilə bağlı məsələlərin digər yolla həlli prosedurlarını əvəz edə bilər.

j) Bu bəndə əsasən hər hansı prosedurla bağlı bildiriş və ya iş prosesi ilə əlaqədar göstərilən xidmətlər 11.01-ci bənddə göstərildiyi qaydada aparılmalıdır. Kredit Müqaviləsində təmsil olunan Tərəflər bu cür bildiriş və ya iş prosesi ilə bağlı göstərilən xidmətin hər hansı birindən və ya hamısından imtina edə bilərlər.

## Maddə XI
## Müxtəlif şərtlər

Bənd 11.01. **Bildirişlər və xahişlər.** Kredit Müqaviləsi çərçivəsində tələb edilən və ya icazə verilən hər hansı bir bildiriş və ya xahiş yazılı surətdə olmalıdır. 12.03-cü bənddə nəzərdə tutulduğu kimi heç bir istisna halı olmadıqda, belə bildiriş və ya xahiş şəxsən və ya qeydiyyata salınmış poçtla, teleqramla, teleks və ya radioqramla tələb edilən və yaxud icazə verilən digər Tərəfə çatdırılmalıdır ki, bu da öz növbəsində həmin Tərəfin Kredit Müqaviləsində göstərilən ünvanına və ya bildirişdə göstərdiyi ünvana göndərilmiş hesab edilir.

Bənd 11.02. **Borcalanın adından müstəqil qərar vermək üçün əsaslandırıcı dəlil.** Kredit Müqaviləsinə əsasən, müstəqil qərar vermək və sənədləri rəsmiləşdirmək üçün ondan tələb edilməklə və yaxud icazə verilməklə, Borcalan öz adından sənədlərin rəsmiləşdirilməsini həyata keçirəcək şəxs və ya şəxslərə verilən səlahiyyət barədə Fonda kifayət qədər dəlil və həmin şəxsin imzasını təqdim etməlidir.

Bənd 11.03. **Borcalan tərəfindən görülən tədbirlər.**

a) Bu bənddə göstərilən məqsədlər üzrə Kredit Müqaviləsinə uyğun olaraq, müstəqil qərar vermək və sənədlərin rəsmiləşdirilməsi üçün Borcalandan tələb edilməklə və yaxud icazə verilməklə, bu iş Borcalanın Kredit Müqaviləsində göstərilən nümayəndəsi və ya onun tərəfindən yazılı surətdə səlahiyyət verilən digər şəxs tərəfindən aparıla bilər.

b) Kredit Müqaviləsi şərtlərinə edilən hər hansı bir dəyişiklik və ya əlavə Borcalanın adından onun yazılı səlahiyyəti ilə bu yarımbəndin a) hissəsində göstərilən hər hansı səlahiyyətli nümayəndəsi tərəfindən razılaşdırıla bilər; bu nümayəndənin fikrincə, edilən düzəliş və ya əlavələr şərtlərə uyğundur və Kredit Müqaviləsi çərçivəsində Borcalanın öhdəliklərini bir o qədər də artırmır. Yekun nəticə etibarilə, Fond bu nümayəndənin və ya digər səlahiyyətli şəxsin icrasını məqbul hesab edir; çünki bu nümayəndənin rəyinə görə, Kredit Müqaviləsi şərtlərinə edilən hər hansı dəyişiklik və ya əlavə mövcud vəziyyətə uyğundur və Borcalanın öhdəliklərini əhəmiyyətli dərəcədə artırmır.

Bənd 11.04. **Kredit Müqaviləsinin nüsxələri.** Kredit Müqaviləsi bir neçə nüsxədə rəsmiləşdirilə bilər ki, onların da hər biri orijinal sayılır.

**Maddə XII**
**Qüvvəyəminmə tarixi; Kredit Müqaviləsinin dayandırılması**

Bənd 12.01. **Kredit Müqaviləsinin qüvvəyəminməsi üçün şərtlər.** Fondu qane edəcək dəlil təqdim edilməyənə qədər Kredit Müqaviləsi qüvvəyə minmir;

a) Kredit Müqaviləsinin Borcalanın adından rəsmiləşdirilməsinə və onun təminatına lazımi hökumət orqanları və digər orqanlar tərəfindən icazə verilmiş və təsdiq edilmişdir.

b) Qüvvəyəminmə şərtləri kimi, Kredit Müqaviləsində müəyyənləşdirilən digər bütün hallar meydana gəlib.

Bənd 12.02. **Hüquqi rəylər və sertifikatlar.** 12.01-ci bəndə uyğun olaraq, əgər Fond xahiş edirsə, Fondun məqbul hesab etdiyi dövlət hüquq rəsmisinin rəyi və rəy təqdim edilməli olan dəlillərin bir hissəsi kimi, Fondu qane edirsə, Borcalan adından səlahiyyətli hüquq rəsmisinin sertifikatı Fonda təqdim edilməlidir.

Bu sertifikatda:

a) Kredit Müqaviləsinə icazə verildiyi və ya təsdiq edildiyi, rəsmiləşdirildiyi və Borcalanın adından göndərildiyi və eləcə də Borcalanın onun şərtlərinə hüquqi əməl edəcəyi haqda; və

b) Kredit Müqaviləsində müəyyənləşdirilən və ya Fond tərəfindən xahiş edilən digər məsələlər göstərilməlidir.

Bənd 12.03. **Qüvvəyəminmə tarixi.**

a) Fond və ya Borcalan tərəfindən digər şərt irəli sürülmürsə, 12.01-ci bəndə uyğun olaraq, Kredit Müqaviləsi Fondun Borcalana dəlillərin qəbul edilməsi ilə bağlı göndərdiyi bildirişdə qeyd olunan tarixdə qüvvəyə minir.

b) Qüvvəyəminmə tarixindən əvvəl, hətta Kredit Müqaviləsi imzalandıqda belə, Fonda Borcalanın Kredit hesabından vəsaitçıxarma hüququnu dayandırmağa əsas verən hər hansı bir hal yarandıqda və bu hal aradan qaldırılana qədər, Fond razılıq əlaməti olaraq, bu bəndin a) paraqrafında qeyd edildiyi kimi, öz tərəfindən bildiriş göndərilməsini təxirə sala bilər.

Bənd 12.04. **Qüvvəyə minmədikdə Kredit Müqaviləsinin dayandırılması.** Əgər Kredit Müqaviləsi bu Müqavilədə göstərilən vaxta qədər qüvvəyə minmirsə, Kredit Müqaviləsini Fond həmin tarixdən sonra istədiyi vaxt Borcalana bildirməklə dayandıra bilər. Belə bildiriş göndəriləndən sonra Kredit Müqaviləsi və Tərəflərin öhdəlikləri avtomatik surətdə dayandırılır.

Bənd 12.05. **Tam ödəmə əsasında Kredit Müqaviləsinin dayandırılması.** Kredit hesabından çıxarılan kreditin bütöv əsas məbləği, bütün kredit faizləri və digər xərclər ödəniləndən sonra Kredit Müqaviləsi və Tərəflərin digər öhdəlikləri qüvvədən düşmüş hesab olunur.